# Radikal erməni qruplarının xaricdəki səfirliklərimizə qarşı qanunazidd hərəkətlərinin qarşısı qətiyyətlə alınmalıdır

***Məlum olduğu kimi, bu il sentyabrın 18-də bir qrup erməni təxribatçısı Parisdə Azərbaycan Respublikasının Fransa Respublikasındakı səfirliyinin binasına basqın edib. Bu, beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir. Bu hadisə ölkə ictimaiyyətində haqlı olaraq dərin hiddət və qəzəb hissi doğurub.***

Xəbərdə deyilir ki, təxribatçılar tərəfindən səfirliyin binasına qarşı vandalizm aktı törədilib. Erməni radikallar Azərbaycan səfirliyinin binasına yaxınlaşaraq binaya zərər verməyə çalışıblar. Paris polisi erməni təxribatçılarının qanunazidd hərəkətlərinin qarşısını almaq üçün tədbir görməyib. Bundan istifadə edən erməni vandalları əvvəlcə səfirliyin qarşısındakı dəmir maneələri aşırıblar, sonra isə binanın giriş qapısını sındırmağa, içəri daxil olmağa çalışıblar.

Yeri gəlmişkən, ermənilərin qanunsuzluğunu əks etdirən videogörüntülərdə yerli hüquq-mühafizə orqanları əməkdaşlarının erməni vandalizminin qarşısını almaq üçün lazımi tədbirlər görmədiyi əks olunub. Bu hal, əlbəttə, acı təəssüf hissi doğurur.



Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev özünün “Twitter” səhifəsində yazıb ki, erməni fanatiklər səfirliyin binasına basqın edirlər: “Amma gəlin, erməni barbarlarını bir kənara qoyaq. Cənab Emmanuel Makron, səfirlikləri qorumayan və təhlükəsizliyimizlə bağlı əsaslı istəklərimizə məhəl qoymayan Fransaya ayıb olsun”.

Parisdə baş verən bu arzuolunmaz hadisə Azərbaycan dövlətinin diqqətindən kənarda qala bilməzdi. Bu il sentyabrın 19-da Fransanın Azərbaycandakı səfiri Zakari Qros Xarici İşlər Nazirliyinə çağırılıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən rəsmi məluatda bildiriblər ki, görüş zamanı bir gün əvvəl Fransadakı Azərbaycan səfirliyinə qarşı bu ölkədəki radikal erməni qrupları tərəfindən törədilən hücumla bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib.

Görüşdə Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov Fransadakı erməni diasporunun radikal ekstremist qüvvələrindən ibarət qrupun Azərbaycan Respublikasının Paris şəhərindəki səfirliyinə hücumunun nümayişkaranə surətdə Fransa qanunlarının və ümumtanınmış beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması ilə müşayiət edildiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

Hücum zamanı səfirliyin binasına maddi ziyan vurulduğu, diplomatik nümayəndəliyin fəaliyyətinə və əməkdaşların həyatlarına təhlükə yaradıldığı qeyd edilib.

Nazir müavini Xələf Xələfov tərəfindən radikal erməni qruplarının bu hərəkətlərinə şəraitin yaradılması və



vaxtında qarşısının alınmamasına görə qəti etiraz bildirilib, diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasına uyğun olaraq diplomatik nümayəndəliklərin təhlükəsizliyinin qəbul edən ölkə tərəfindən təmin edilməsi öhdəliyinin Fransa tərəfindən yerinə yetirilməməsinə görə dərin təəssüf ifadə edilib.

Həmçinin diplomatik nümayəndəliyə və onun heyətinə təhlükə yaradan vandalizm aktının Fransanın hüquq-mühafizə orqanları tərəfindən hərtərəfli araşdırılması, müvafiq hüquqi qiymətin verilməsi, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi və vurulmuş ziyanın ödənilməsinin təmin olunması tələb edilib.

Fransa səfiri Azərbaycan səfirliyinə qarşı baş verən hadisənin təəssüf doğurduğunu bildirib. Azərbaycan tərəfinin müraciətinə müvafiq olaraq, hadisəyə müvafiq hüquqi qiymətin verilməsi üçün aidiyyəti addımların atılacağı qeyd edilib.

Təəssüf ki, Azərbaycanın Fransadakı səfirliyinə hücum ölkəmizin xaricdəki diplomatik nümayəndəliklərinin erməni icmasının radikal nümayəndələrinin hücumuna məruz qaldığı ilk hal deyil. XİN-in mətbuat katibi Leyla Abdullayeva deyib ki, bununla daha öncə də üzləşmişik və təəssüf ki, son günlər bu cür hərəkətlərin şahidi oluruq.

XİN rəsmisinin sözlərinə görə, bununla bağlı Azərbaycan XİN tərəfindən açıqlamalar verilib, məsələnin ciddi narahatlıq doğurduğu bildirilib və bu kimi hadisələrin baş verdiyi ölkələrə müvafiq mesajlar göndərilib.

Milli Məclisin deputatı Elnur Allahverdiyev mətbuata açıqlamasında bildirib ki, ötən əsrin 70–80-ci illərində erməni terrorçu təşkilatları, terrorçuları da belədə müxtəlif xüsusi xidmət orqanlarının arxasına sığınaraq türk diplomatlarına qarşı cinayətlər, hava limanlarında partlayışlar törədir, səfirliklərə hücum çəkirdilər. Bilirdilər ki, həbs edilsələr də, azadlığa çıxacaqlar. Monte Melkonyanlar, Jirayr Səfilyanlar və s. kimi. Bundan illər əvvəl isə onlar Cümhuriyyətimizin parlaq simalarını, Türkiyənin dövlət adamlarını xaincəsinə qətlə yetiriblər.




Deputat sonra deyibdir: “Fransa ərazisində olan diplomatik nümayəndəliyin təhlükəsizliyinə cavabdehdir! Hər bir dövlət kimi. Bizim dövlət Fransanın Bakıdakı səfirliyinə belə bir hücumun edilməsinə göz yumarmı? Yaxud Fransanın soyqırımı törətdiyi ölkələrdən birinin nümayəndələri ermənilərin Parisdə etdiklərini Bakıda törətsələr, biz də buna müdaxilə etməsək, münasibət nə olar? Xoşlarına gələr? Son bir neçə gündə Fransa Prezidenti Ermənistanın baş naziri ilə bir neçə dəfə telefonla danışıb. Bəyəm Parisdə bilmirdilər ki, son gərginliklə bağlı belə olaylar baş verə bilər?”

Milli Məclisin deputatı Tahir Rzayev də dedi ki, Azərbaycan səfirliklərinə hücumlar yolverilməzdir. Belə ki, Vyana konvensiyası üzrə səfirliyin yerləşdiyi ölkələr səfirlik və onun əməkdaşlarının təhlükəsizliyi üçün məsuliyyət daşıyırlar.

Tahir Rzayev sonra bu sözləri vurğuladı: “Fransada baş verən sonuncu hadisə, ABŞ-da Azərbaycan səfirliyinə qarşı aqressiv hücum fonunda yerli polis və təhlükəsizlik qüvvələrinin laqeydliyi Azərbaycan ictimaiyyətini haqlı olaraq narahat edir. Belə qanunsuz halların qarşısı dərhal alınmalıdır”.

Xatırladaq ki, bu il 4 avqust tarixində Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyi bir qrup radikal dini dəstənin hücumuna məruz qalmışdı. London polisi hadisə ilə əlaqədar 8 nəfəri saxlamışdır. Hadisə zamanı xəsarət alan olmayıb, faktla bağlı araşdırma aparılıb. Qeyd edək ki, səfirliyə bir qrup radikal dini dəstənin hücumu zamanı çıxarılan Azərbaycan Bayrağı da yenidən yerinə bərkidilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Londonda Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə baş vermiş hücumu pisləmişdir. O, bu barədə jurnalistlərə açıqlamasında deyibdir: “Azərbaycanın Londondakı səfirliyinə hücumu qəbulolunmaz hesab edirk. Bu hadisənin ciddi və ətraflı şəkildə araşdırılaraq təqsirkarların layiqli cəzalarını alacağına ümid edirik”.

Bir çox Qərb dövlətlərindən fərqli olaraq, Azərbaycan dövləti ölkədəki 65 səfirlik, 4 baş konsulluq və 11 fəxri konsulluğu ən yüksək səviyyədə qoruyur. Ölkəmizdə fəaliyyət göstərən diplomatlar özlərinə qarşı hər hansı bir təzyiq hiss etmirlər.

Nədənsə həmişə ali dəyərlərdən danışan, beynəlxalq huququ qorumalı olan bəzi dövlətlər Azərbaycanın bu ölkələrdəki səfirliklərinin fəaliyyətinin təmin olunması ilə bağlı üzərlərinə düşən vəzifələri yerinə yerinə yetirməyi unudurlar. Qəribədir, deyilmi?!

***M.HACIXANLI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 21 sentyabr.- S.4.